## Coğrafiya elmləri / Geographical Sciences

# AZƏRBAYCAN RESPUBLİKASINDA ƏHALİNİN ETNİK MÜXTƏLİFLİYİ VƏ LİNQVİSTİK STRUKTURU

Sona İmanova[1]*

[1]*Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan*

**Məsul müəllif: sona.imanova@adpu.edu.az*

***Açar sözlər:*** *çoxmillətli, xalq, etnik azlıqlar, superetnos, etnos, milli qrup, folklor*

***Xülasə.*** Məqalədə Azərbaycan Respublikasında əhalinin etnik müxtəlifliyi və linqvistik strukturu təhlil edilmişdir. Tədqiqat çərçivəsində respublikada mövcud olan əsas etnik qruplar, tarixi inkişaf perspektivləri və onların regional yayılması araşdırılmışdır. İllər üzrə Azərbaycan əhalisinin və Azərbaycan etnosunun say və inkişaf dinamikası təhlil edilmiş, əhalinin ümumi mənzərəsi təsvir edilmişdir. Təhlil zamanı ölkədə əhalinin etnik və dil tərkibiylə yanaşı, onların tarixən formalaşması, adət-ənənələri, məşğuliyyətləri öyrənilmiş və təhlil edilmişdir. Həmçinin əhalinin istifadə etdiyi dillərin coğrafi paylanması, rəsmi və qeyri-rəsmi dillərin statusu, dialektik xüsusiyyətləri təhlil edilmiş, müəyyən nəticələr əldə edilmişdir. Alınan nəticələrdən göründüyü kimi Azərbaycan Respublikası çoxmillətli və linqvistik baxımdan çoxşaxəli ölkə olmaqla, bu müxtəliflik milli identiklik və ya özünüdərk, sosial inteqrasiya və siyasi məzmunda əhəmiyyətli rol oynayır. Ən son statistik göstəricilər əsasında ölkənin etnik tərkibinin statistika üzrə faizlərlə göstəriciləri qeyd edilmiş və bununla da ölkə əhalisi haqqında geniş təsəvvür yaranmışdır. Tarixən çoxmillətli Azərbaycan dövlətinin hüdudlarında yaşayan çoxsaylı xalqların etnik-mədəni özünəməxsusluğunun qoruyub saxlamaları və inkişafı üçün dövlət tərəfindən müvafiq hüquqi instutisional mexanizmlər yaradıldığı, dörd etnosun hər birinin 100 mindən artıq sayı olduğu və dörd fərqli dil ailəsinə daxil olduğu müəyyən edilmişdir. Məqalədə demoqrafik statistik və dilçilik məlumatlarına əsaslanaraq etnik-linqvistik balansın təmin edilməsi, ictimai-siyasi sabitliyin qorunması, sosial inteqrasiya və dövlətçilik siyasətinin davamlılığının həyata keçirilməsi dəyərləndirilir.

Etnik və dil tərkibindən bəhs edən tədqiqat işində regional xüsusiyyətlərlə və tarixi proseslərlə yanaşı qloballaşma təsiri nəzərə alınmışdır. Eyni zamanda tədqiqat işi zamanı tarixi, sosial-iqtisadi, mədəni-linqvistik, demoqrafik və coğrafi aspektlər üzrə təhlillər kompleks həyata keçirilmişdir.

*© 2026 Müəllif(lər). Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Coğrafiya İnstitutu tərəfindən nəşr edilmişdir. Bu məqalə Creative Commons Attribution 4.0 Beynəlxalq Lisenziyası (CC BY 4.0) əsasında yayımlanır.*

## Giriş

Azərbaycan Respublikası çox sayda bərabər hüquqlu xalqların, o cümlədən sayı yüz mindən çox olan dörd əsas etnik qrupun və sayca az olan xalqların nümayəndələrinin yaşadığı çoxmillətli dövlətdir. Ölkədə əhalinin inkişafı uzun tarixi proses keçməklə təkamül yolunda müxtəlif dövrləri əhatə etmişdir. Milli azlıqların mədəni özünüdərkinin qorunması, sosial və mədəni inteqrasiyasının həyata keçirilməsi, eyni zamanda multikultural prioritetlərinin inkişaf etdirilməsi məqsədi ilə onlar üçün yalnız Bakı şəhərində 20-dən çox mədəniyyət evi və icmalar yaradılmışdır. Bu icmalar həmçinin etnik azlıqların lokal şəkildə yaşadıqları bütün inzibati rayonlarda mövcuddur. Azərbaycan dövlətinin hüdudlarında yaşayan müxtəlif etnoslara və dinlərə mənsub olan insanların mədəni müxtəlifliyinin qorunub saxlanması dövlət siyasətinə çevrilmişdir. XX əsrin sonlarında bu siyasi davranış Ulu Öndər Heydər Əliyevin səyi nəticəsində dövlətçilik ideologiyasına çevrilmiş və Azərbaycanda dini azadlıqların təmin olunması və milli-mədəni dəyərlərin qorunması istiqamətində institusional baza yaratmışdır (Qarayev, 2016). Ölkənin əhalisinin ümumi say göstəricisinə nəzər saldıqda başqa etnik qrupların təşkil etdiyi faiz göstəricisinin (5,8%) az olmasına baxmayaraq, Azərbaycan çoxmillətli ölkə hesab edilir. Çoxmillətlilik həm müxtəlif etnik qrupların sayına, həm də tarixi mövcudluğuna və ictimai-siyasi proseslərdə iştirakına əsaslanır. 2025-ci ilin statistik məlumatlarına əsaslanaraq qeyd edə bilərik ki, Respublika əhalisinin 94,2%-ni Azərbaycan türkləri, 2%-ni ləzgilər, 1,3%-ni ruslar, 1,3%-ni talışlar, 0,6%-ni avarlar, 0,4%-ni məhsəti türklər,1,2%-ni isə digər xalqlar təşkil edir. Çoxmillətli Azərbaycan dövlətində yaşayan xalqların etnik-mədəni özünəməxsusluğunu qorumaqla yanaşı, digər xalqların və etnik

azlıqların mütərəqqi sosial-mədəni amillərini nəzərə alaraq, onların qarşılıqlı şəkildə inkişaf etdirilməsi təmin edilmişdir (Quliyeva, 2012). Azərbaycan etnosunun inkişaf tarixini qiymətləndirsək, əhalinin 94,2%-ni təşkil edən azərbaycan türklərinin etnogenezinin formalaşmasında əsrlər boyu müxtəlif etnik qrupların iştirak etdiyi müəyyən edilmişdir.

Etnik tərkibin kompleks təhlili ilə yanaşı bərabər, həmin qrupların linqvstik struktrunun təyin edilməsi, onların daxil olduqları dil ailələri və dil qruplarının xüsusiyyətlərinin müəyyənləşdirilməsi və tədqiqi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan türkcəsi Altay dil ailəsində türk dilinin cənub-qərb və yaxud oğuz qoluna aiddir. Müasir Azərbaycan türkcəsinin formalaşması prosesi birinci minilliyin əvvəllərindən ölkə ərazisində mövcud olmuş türk etnosları ilə bağlı olmuş və təşəkkül tapmışdır. Hazırda ölkə ərazisində məskunlaşmış xalqların dilləri, əsasən dörd böyük dil ailəsinə mənsubdur. Türk dilləri qrupuna daxil olan Azərbaycan türkcəsi ilə yanaşı ləzgi, avar, saxur, udin, qrız dilləri ilə təmsil olunmuş Şimali Qafqaz dil ailəsini, talış, rus, kürd dillərinin daxil olduğu Hind-Avropa dil ailəsini, gürcü dilini əhatə edən Kartvel dil ailəsini təmsil edir.

## Material və metod

Tədqiqatın materialını Azərbaycanda yaşayan əhalinin etnik və ya milli tərkibi, əsas çoxluq təşkil edən xalqlar, milli azlıqlar və dil qruplarının tərkibi təşkil edir. Məqalədə Azərbaycan Respublikasının əhalisinin etnik və dil tərkibini xarakterizə edən rəsmi statistik və elmi mənbələrdən istifadə edilmişdir. Azərbaycan çoxmillətli dövlətdir, çünki, bu status yalnız etnik qrupların ümumi sayına deyil, tarixi mövcudluğuna və ictimai-siyasi proseslərdə iştirakına görə müəyyən edilir. Tədqiqat zamanı ölkə əhalisinin tarixi inkişafı, say dinamikası və ictimai-siyasi proseslərində iştirakına dair materiallar araşdırılmışdır. Azərbaycan əhalisinin tərkibində Azərbaycan etnosundan əlavə, onlarla xalq və milli qrupların nümayəndələri, yəni, etnik azlıqlar mövcuddur ki, bu da müxtəlif xalqların tarixi, coğrafiyası, dini, dili və adət-ənənələrinin elmi baxımdan araşdırılmasını zəruri edir. Əhalinin milli tərkibini araşdırdıqda illər üzrə ölkə miqyasında Azərbaycan etnosunun faiz göstəriciləri statistik məlumatlara əsaslanaraq miqyaslı və sistemli şəkildə təhlil edilmişdir. Həmçinin etnik və dil qruplarının məskunlaşma xüsusiyyətlərinin müəyyənləşdirilməsi üçün regional statistik göstəricilər və coğrafi məlumatlar kompleks təhlil edilmişdir.

Məqalənin tədqiqində müasir və ənənəvi tədqiqat metodlarından: müqayisəli təhlil, statistik analiz, tarixi yanaşma, coğrafi yanaşma, həmçinin sistemli analiz metodlarından istifadə edilmişdir. İstifadə edilən metodlar vasitəsilə əhalinin etnik və dil göstəriciləri üzrə təhlillər aparılmış, illər üzrə siyahıya alma zamanı etnik və linqvistik dəyişikliklər kompleks şəkildə tədqiq edilmişdir. Həmçinin milli tərkibin formalaşma dövrləri və dil qruplarının məkan daxilində coğrafi xüsusiyyətləri təhlil edilmişdir.

## Məsələnin qoyuluşu və tədqiqatın nəticələri


Əhalinin demoqrafik göstəricilərinin təhlili əsasında qeyri-azərbaycanlı etnik qrupların məhdud saya (5,8%) malik olmasına baxmayaraq, Azərbaycan Respublikası çoxmillətçilik prinsiplərinə əsaslanan dövlətdir. Çünki elmi yanaşmada çoxmillətçilik anlayışı yalnız say göstəricisi deyil, etnik qrupların sayı, tarixi mövcudluğu və ictimai-siyasi proseslərdə iştirakı kimi meyarlar əsasında qiymətləndirilir. Azərbaycan Respublikası əhalisinin etnik tərkibində Azərbaycan etnosundan əlavə, çoxsayda etnik azlıqlar ləzgi, rus, talış, avar, tatar, tat, saxur, gürcü, yəhudi, kürd, qrız, udin və s. xalqlar təşkil edir. Respublika əhalisinin milli təkibini dinamik təhlil etdikdə Azərbaycanlıların ümumi əhalidə çəkisi 1979-cu ildə 78,1%, 1989-cu ildə 82,7%, 1999-cu ildə 90,6%, 2009-cu ildə 91,6%, 2025-ci ildə isə 94,2% təşkil etmişdir. Ölkədə digər millətlərin nümayəndələrinin əksəriyyəti yaşadıqları dövlətdə formalaşmış yerli etnik struktura inteqrasiya olunaraq daxil olmuşdur. Belə vəziyyət yarandığı halda bir çox etnoloqların milli dövlət anlayışlarını eyniləşdirmək təklifləri Azərbaycan Respublikası üçün uyğun deyil. Çünki **superetnos** təşkil edən Azərbaycanlılar tarixi və mədəni inkişaf proseslərilə təşəkkül taparaq, kifayət qədər yüksək inkişaf səviyyəyə malik etnik vahiddir (İmanova, 2026, Musayeva, 2020).

Azərbaycan Respublikasının əhalisinin milli tərkibi və linqvistik quruluşunun zənginliyi tarixi-etnogenez proseslər, əlverişli geosiyasi və iqtisadi-coğrafi mövqeyi, həmçinin sosial-iqtisadi inkişaf nəticəsində meydana gəlmiş çox komponentli sosial demoqrafik sistemlə bağlıdır. Bu struktur tarix boyu çoxsaylı etnosların qarşılıqlı əlaqəsi, mədəni inteqrasiya və assimlyasiya prosesləri fonunda təşəkkül tapmışdır. Əhalinin etnik tərkibinin müxtəlifliyi ilə yanaşı, dil qruplarının bölgüsü də ölkənin tarixi-coğrafi inkişaf xüsusiyyətlərini əks etdirir. Azərbaycan türkcəsi ölkədə ümummilli ünsiyyət vasitəsi kimi çıxış edir. Buna baxmayaraq ölkə

hüdudlarında müxtəlif dil ailələrinə mənsub dillər də mövcuddur. Azərbaycanda etnik və linqvistik tərkib milli biliyin möhkəmləndirilməsi və multikultral dəyərlərin qorunmasını təmin edir.

XX əsrdə Azərbaycan əhalisinin ümumi say dinamikası ölkədə gedən demoqrafik proseslərin uzun müddətli inkişafını əks etdirir. Bu inkişaf müxtəlif tarixi, sosial-iqtisadi və siyasi mərhələlərdə baş verən dəyişikliklərlə özünü göstərmişdir.

Ölkə əhalisi 1939 (3205,2 min), 1959 (3697,7 min),1970 (5117,1 min), 1979 (6026,5 min), 1989 (7021,2 min), 1999 (7953,4 min), 2003 (8922,4 min), 2019 (9951,4 min), 2024 (10,2 milyon), 2025-ci (10,3 milyon) illər üzrə təhlil edilmişdir. Alınan nəticələrə əsasən ölkə əhalisinin ümumi sayı illər üzrə ciddi şəkildə dəyişildiyi, eyni zamanda Azərbaycan etnosunun payının müvafiq dövrlərdə artmış olduğu diqqəti çəkmişdir (Qrafik1).




| 3205, 2min | 3697, 7min | 5117, 1min | 6026, 5min | 7021, 2min | 7953, 4min | 8922, 4min | 9951, 4min | 10,2 mln | 10,3 mln |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1939 | 1959 | 1970 | 1979 | 1989 | 1999 | 2003 | 2019 | 2024 | 2025 |

**Qrafik 1.** Azərbaycan əhalisinin dinamikası (1939-2025-ci illər)
**Mənbə:** İmanova (2026) və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin ASİS məlumat bazası əsasında tərtib edilmişdir.

Azərbaycan Respublikasında yaşayan bütün etnosların nümayəndələri vahid bir ailənin üzvləri kimidir. Azərbaycan rəhbərliyinin həyata keçirdiyi əsas istiqamətlərdən biri də ölkədə milli azlıqların qorunması, onların firavan yaşaması üçün şəraitin yaradılmasıdır. Azərbaycanın əhalisinin dünya görüşü tarixi, iqtisadi və mədəni inkişaf çərçivəsində multikulturalizm və tolerantlıq prinsipləri ilə səciyyələnir. Ölkə tərəfindən atılan məqsədyönlü addımlar dini və etnik mənsubiyyətindən asılı olmayaraq bir ailə kimi yaşamaq ənənələrinin davamlılığını təmin edir. Bu siyasətin nəticələri ölkə əhalisinin etnik tərkibində özünü aydın şəkildə göstərir. 1926-2025-ci illəri müqayisə etdikdə son 100 ildə əhalinin etnik tərkibində baş verən transformasiyanı müşahidə edirik (Cədvəl 1) (İmanova, 2026, Məhərrəmov, 2022, asis.az).

1926-cı ildə Azərbaycan əhalisinin sayı 2314,6 min nəfər olmuşdur. Onlardan 1438 mini azərbaycanlılar, 282 mini ermənilər, 220,5 mini ruslar, 77,3 mini talışlar, 41,2 mini kürdlər, 37,3 mini ləzgilər, 30,9 mini yəhudilər, 19,1 mini avarlar, 18,2 mini ukraynalılar, 15,6 mini saxurlar, 9,9 mini tatlar, 9,5 mini gürcülər, 2,4 mini udinlər və 112,7 mini başqa millətlərin nümayəndələri idi. 2025-ci ilin rəsmi statistikasına görə isə Respublika əhalisinin (10,3 mln.nəfər) 9610,2 min nəfərini azərbaycanlılar, 180,3 min nəfərini ləzgilər, 119,3 min nəfərini ruslar, 112 min nəfərini talışlar, 49,8 min nəfərini avarlar, 25,9 min nəfərini tatarlar, 25,2 min nəfərini tatlar, 21,5 min nəfərini ukraynalılar, 12,3 min nəfərini saxurlar, 9,9 min nəfərini gürcülər, 9,1 min nəfərini yəhudilər, 6,1 min nəfərini kürdlər, 4,4 min nəfərini qrızlar, 3,8 min nəfərini udilər, 170 nəfərini erməni, qalan hissəsini başqa etnoslar təşkil edir.

***Cədvəl 1***

1926-2025-ci illərdə Azərbaycan əhalisinin etnik tərkibi

| № | Xalqlar (1926-cı il) | Sayı,min nəfər ilə | Xalqlar (2025-ci il) | Sayı,min nəfər ilə |
|---|---|---|---|---|
| **1** | Azərbaycanlılar | 1438 | Azərbaycanlılar | 9610,2 |
| **2** | Erməni | 282 | Ləzgilər | 180,3 |
| **3** | Ruslar | 220,5 | Ruslar | 119,3 |
| **4** | Talışlar | 77,3 | Talışlar | 112 |

| | | | | |
|---|---|---|---|---|
| **5** | Kürdlər | 41,2 | Avarlar | 49,8 |
| **6** | Ləzgilər | 37,3 | Tatlar | 25,2 |
| **7** | Yəhudilər | 30,9 | Ukraynalılar | 21,5 |
| **8** | Avarlar | 19,1 | Saxurlar | 12,3 |
| **9** | Ukraynalılar | 18,2 | Gürcülər | 9,9 |
| **10** | Saxurlar | 15,6 | Yəhudilər | 9,1 |
| **11** | Tatlar | 9,9 | Kürdlər | 6,1 |
| **12** | Gürcülər | 9,5 | Udilər | 3,8 |
| **13** | Udilər | 2,4 | Erməni | 170 nəfər |
| **14** | Digər xalqlar | 112,7 | Digər xalqlar | 30,3 |

**Mənbə:** İmanova (2026) və Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin ASİS məlumat bazası əsasında tərtib edilmişdir.

Yəhudi xalqı (dağ yahudiləri)- Azərbaycan ərazisinə XVI əsrdə İrandan miqrasiya etmişlər. Azərbaycanda yaşayan yəhudilərin yeganə varisi olan dağ yəhudiləri Quba, Oğuz və Göyçay rayon mərkəzində, Bakı və Sumqayıt şəhərlərində yaşayırlar. Qırmızı qəsəbə (Quba rayonu) dünyada dağ yəhudilərinin əhalisinin ən sıx yerləşdiyi ərazilərdəndir. Tarixən dağ yəhudiləri əkinçilik, xırda ticarət, toxuculuq və sənətkarlıqla məşğul olmuşdur. İrəli sürülən bəzi fikirlərə görə dağ yəhudiləri mənşəcə İsrail yəhudilərinin kökündən olub, Assuriya və Babil şahları tərəfindən Fələstindən çıxarılmış və Midiyada məskunlaşdırıldığı ehtimal olunur (e.ə.VI-V əsr). Onlar, Midiyada yaşadıqları zaman tatlarla konsolidasiyaya uğramış, nəticədə qədim fars dilinin yəhudi sözləri ilə qarışıq bir ləhcəsi olan tat dilində danışırlar. 1990-cı ildən sonra Azərbaycanda yəhudi icmaları fəallaşaraq, əlaqələrini beynəlxalq yəhudi qurumları ilə möhkəmləndirmiş və mədəniyyət mərkəzləri, dini məktəblər və s. yaratmışlar. Avropada ən böyük yəhudi sinaqoqu 2003-cü ildə Bakıda açılmışdır. Ölkədə bu etnosun nümayəndələri həmişə vahid mövqe saxlamış və bu davranışa görə Azərbaycan yalnız İsrail dövləti ilə müqayisə edilə bilər. Respublikada yaradılmış yəhudi icmaları hər zaman dövlətin diqqətində olmuş və qayğısı ilə əhatələnmişdir (İmanova, 2026, Məhərrəmov, 2022).

Talışlar - Azərbaycan Respublikasının cənub-şərqində yerləşən Lənkəran, Astara, Masallı və Lerik rayonlarında və İranın şimalında yaşayan xalqdır. Talışlar İran dil qrupuna mənsub olub, talış dilində danışırlar. Talışların maddi və mənəvi mədəniyyətlərinin, adət-ənənələrinin və həyat tərzlərinin azərbaycan etnosundan çox fərqlənməməsi onların kadusilərin soyundan olduqları ehtimalına gəlir. Tarixən məskunlaşdıqları ərazilərdən başqa, Bakı və Sumqayıt kimi böyük sənaye şəhərlərində Azərbaycan türkləri ilə qarışıq halda yaşayırlar.

Onların mədəniyyətinin öyrənilməsi və qorunması məqsədilə onlarla mədəniyyət mərkəzləri yaranmışdır (”Talış mədəniyyət mərkəzi” və s.). Bu mərkəzin fəaliyyəti ilə əlaqədar olaraq müxtəlif yaşayış kəndlərində, mədəniyyət evlərində talışların mədəniyyətlərini qoruyub saxlayan mahnı kollektivləri və milli rəqs qrupları yaradılmışdır.İbtidai siniflərin fəaliyyət göstərməsi milli azlıqlarla bağlı dövlət tədbirlərinin nəticəsidir (Məhərrəmov, 2022, Quliyeva, 2012, asis.az).

Kürdlər – Azərbaycanda Naxçıvan MR-nın Teyvaz kəndində (Culfa rayonu), Dərəkənd kəndində (Şərur rayonu), erməni işğalına qədər Kamallı, Qarakeçdi, Çıraqlı və Minkənd kəndlərində (Laçın rayonu), Ağcakənd və Zar kəndlərində (Kəlbəcər rayonu), Zilanlı kəndi (Qubadlı rayonu) və digər kəndlərdə məskunlaşmışlar. Kürdlərin Azərbaycanda məskunlaşması ərəb mənbələrində Şirvanda, Aranda və digər rayonlara aid olan məlumatlarda öz əksini tapmışdır. Kəlbəcər-Laçın ərazisinin tamamilə işğalından sonra minlərlə kürd Azərbaycanın müxtəlif bölgələrində məcburi köçkün kimi məskunlaşmışdır. Onlar hind-avropa dil ailəsinin iran dil qrupuna məxsusdur.

Tatlar - Azərbaycanın şimal hissəsində yerləşən Quba, Şabran, Şamaxı, İsmayıllı rayonlarında, Xızıda və Bakı şəhərinin bir neçə kəndlərdə yaşayan azsaylı xalqdır. Tədqiqatçılar tatların Azərbaycana köçürülmüş qədim iranlıların qalıqları olduqları ehtimalını irəli sürürlər. Eyni zamanda tatların mədəni inkişafı və həyat tərzi Azərbaycan türklərinin mədəniyyəti ilə eyniləşmişdir. Ölkədə tatların türkdilli mühitdə dil və adət-ənənələrinin qoruyub saxlanılması elmi və siyasi baxımdan xüsusi əhəmiyyət kəsb edir. Danışıq dilləri hind-avropa dil ailəsinin iran qrupuna aid olaraq üç əsas ləhcəyə aiddir (İmanova, 2026, asis.az).

Avarlar - Dağıstan Respublikasının ən böyük xalqlarından biridir. Respublikanın şimal-qərb bölgəsində yerli əhali ilə qaynayıb qarışan avarlar Zaqatala və Balakən inzibati rayonlarının Qabaqçöl qəsəbəsində, Matsex, Danaçı, Mahomalar, Yolayrıcı və s. kəndlərində və Bakı

şəhərində yaşayan Qafqaz xalqıdır. Avarların ümumi sayı 50 mindən artıqdır və şimali qafqaz dil qrupuna məxsus olmaqla avar dilində danışırlar. Zaqatala-Balakən ərazisində fəaliyyət göstərən 19 məktəbdə yeddi minə yaxın şagird avar dilində təhsil alır. 2008-ci ildən fəaliyyət göstərən "Avar Mədəniyyət Mərkəzi" 14 etnik qrupun mədəniyyətinin, adət-ənənələrinin qorunub saxlanmasını təmin edir. Bu mədəniyyət mərkəzinin nəzdində müxtəlif rəqs qrupları fəaliyyət göstərir. Balakən rayonunda "Heydər Əliyev" muzeyi, tarix-diyarşünaslıq müzeyi və s. fəaliyyət göstərir. Balakən rayonunda 14 etnik qrupun nümayəndəsi yaşamaqla, milli irsin və adət-ənənələrin qorunub saxlamaları ilə yanaşı həm də təbliğ edilir. Bu bölgədə avarlar üstünlük təşkil etməklə inqloy, udi, saxur, rus, ləzgi və s. etnik qruplar da yaşayır (İmanova, 2026, Məhərrəmov, 2022).

Saxurlar - Azərbaycanın qədim azsaylı xalqlarından biridir. Saxurlar özlərini saxur dilində etimaloji mənası "dağlılar" olan "Çibqi" adlandırırlar. Zaqatala rayonunun Mamrux, Gözbarax, Suvagil, Qax rayonunun Qum, Güllük, Çinarlı, Şəki rayonunun Şin və Qaynarca və s. kəndlərində qədim Alban məbədlərinin günümüzə qədər gəlib çatması saxurların Azərbaycanın qədim xalqı olmasını bir daha təsdiq edir. Saxurların adı yaşadıqları ən böyük yaşayış məntəqəsinin adı ilə əlaqələndirilir. Dilləri Qafqaz dil qrupunun Nax-Dağıstan alt qrupuna aiddir. Onlar azərbaycanlılarla qaynayıb qarışaraq Azərbaycan türkcəsinə, mədəniyyətinə yiyələnsələrdə toy adətlərində özünəməxsusluqlarını qoruyub saxlamışlar. Ölkədə çoxsaylı xalqların folkloru ilə paralel, etnik azlıqların folklorunu da öyrənmək vacib məsələdir. Azərbaycan Respublikasının prezidenti İlham Əliyev tərəfindən bu məsələ ilə bağlı sərəncam imzalanmış və bu sərəncam azsaylı xalqları çox sevindirmişdir. Bu sərəncamdan sonra saxur xalqlarının mədəni-linqvistik xüsusiyyətlərinin öyrənilməsi, eləcə də xalqların mədəniyyətinin gələcək nəsillərə çatdırılmasında rolu əvəzedilməzdir (İmanova,2026, Məhərrəmov, 2022, Yaqub qızı, 2014).

İnqiloylar - Azərbaycanın şimal-qərb hissəsində, əsasən Qax və Zaqatala rayonları ərazisində məskunlaşmışlar. İnqiloyların bir hissəsi I Şah Abbasın dövründə müsəlmanlığı qəbul etmişlər. Bu etnik qrupun nümayəndələrinin az hissəsi isə xristian dininə etiqad edərək, gürcü dilinin cənub dialektində danışırlar. İnqiloylar etnik, psixoloji, mədəni keyfiyyətlərinə görə azərbaycan etnosu ilə qohumluq əlaqələrinə malikdirlər. Milli azlığın nümayəndələri yaşadıqları cəmiyyətə inteqrasiya olunmuş, bütün sahələrdə iştirakı cəmiyyətin çoxmillətli strukturunda öz mövqeyini qoruyur.

Udilər və ya udinlər - Qafqazın qədim sakinlərindəndir. Udi etnosu yalnız Azərbaycanın ərazisində mövcuddur. Udi dili Qafqaz dilləri ailəsinin Nax-Dağıstan qrupuna daxildir və bu dilin əlifbası yoxdur. Azərbaycanın yerli xalqlarından biri olmaqla, hal-hazırda əsasən Qəbələ rayonunda (Nic kəndində), qismən də Oğuz rayon mərkəzində yaşayırlar. Udilər IV əsrin əvvəllərində xristianlığı qəbul etmişlər və 2003-cü ildə rəsmi şəkildə alban-udi xristian icması yaradılmış və qeydiyyata alınmışdır. Bu addım regionda xristian icmalarının təşkili və etnik-mədəni irsin qorunması üçün çox əhəmiyyətli hesab olunur. Şəki-Zaqatala iqtisadi-coğrafi rayonunun qədim xalqlarından olan udilər bölgənin yerli əhalisi ilə qaynayıb qarışmışlar (Babayeva, 2020).

Avarlar, saxurlar, udilər və ingiloylar etnik baxımdan çoxşaxəli demoqrafik struktura malik olan Şəki-Zaqatala iqtisadi rayonunda tarixən formalaşmış yerli etnik icmala kimi məskunlaşmışlar. Oğuz, Zaqatala, Balakən, Qax və Qəbələ rayonları bu etnosların kompakt yaşayış arealları olaraq regionun multietnik sosial-mədəni xüsusiyyətlərini səciyyələndirir (Xəritə-sxem 1).




**Xəritə-sxem 1.** Şəki-Zaqatala iqtisadi rayonunda yaşayan azsaylı xalqlar
**Mənbə:** Müəllif tərəfindən tərtib edilmişdir.

Avarlar- Balakən rayonunun Mahamalar, Qabaqçöl, Matsex, Katex, Zaqatala rayonunun Car, Yolayrıc, Danaçı.

Saxurlar- Zaqatala rayonunun Muxax, Qax rayonunun Çinarlı, Qum, Şin, Qaynarca.

Udilər- Qəbələ rayonunun Nic kəndində.

İngiloylar- Balakən rayonunun İtitala kəndində, Qax rayonunun Əmircan, İngiloy Kötüklü kəndində.

Rutullar saxurların bir hissəsi olmaqla Saxur dilinə yaxın dildə danışırlar, lakin ədəbi dilləri Azərbaycan dilidir. Ərəblərin Qafqaza gəlişi İslam dininin rutullar arasında yayılmasına səbəb olmuşdur (VII əsrdən etibarən). Əsas dilləri rutul və yaşadıqları ölkələrin dilləridir. Azərbaycanda rutul xalqları əsasən Şəki rayonunun Şin və Qaynarca kəndlərində yaşayırlar.

Şahdağ xalqları – Azərbaycanda yaşayan az saylı etnik qrupdur. Bu etnik qrup respublikada Quba və Qusar rayonlarında məskunlaşmış və əsasən Buduq, Cek, Əlik, Haput, Qrız, Xınalıq, Yergüc, Laza və Xalilli kəndlərində yaşayırlar və yaşadıqları kəndlərin adlarına müvafiq olaraq buduqlular, ceklilər, əliklilər, haputlular, qrızlılar, xınalıqlılar və s. adlanırlar. Bu kəndlərin hərəsinin əhalisi ayrı-ayrılıqda bir etnik qrupdur. Şahdağ xalqlarının tarixi irsini, mədəniyyətlərini, adət-ənənələrini və danışıq dillərini qoruyub saxlamaq məqsədilə regionda Xınalıq mədəniyyət evi, Nij mədəniyyət evi və digər mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Bu mərkəzlərdə həm tarixi-mədəni, həm də xalq və folklor fəaliyyət göstərir (Yaqub qızı,2014).

Xınalıq etnik azlığı ölkənin yüksək dağlıq zonasında (Quba rayonunda) Xınalıq kəndində tarixən məskunlaşmış yerli etnoslardandır. Onlar Qafqaz dilləri ailəsinin Nax-Dağıstan qoluna aid olan xınalıq dilində danışırlar. Adət-ənənələri, folkloru, qədim inanclar sistemi bir etnos kimi onların xarakterik xüsusiyyətlərini formalaşdırır. Həmçinin dilin və mədəni irsin qorunub təbliği xüsusi əhəmiyyət kəsb edir (Paşayeva,2013).

Ləzgilər - Qafqaz xalqlardan biri olmaqla Azərbaycanda əsasən şimal bölgələrində, xüsusilə Qusar, Quba, Xaçmaz inzibati rayonlarında, həmçinin də Bakı, Gəncə, Sumqayıt və Mingəçevir şəhərlərində yaşayırlar. Onlar Quba-Xaçmaz iqtisadi rayonunda sıx məskunlaşmışlar.

Almanlar - Ruslar 1819-cu ildə Azərbaycanda yaşayan almanları Vyutenberq krallığından köçürmüşlər. Almanlar ilk dəfə Yelizavetpolda indiki Gəncə şəhərində, sonra Yelenendorfda indiki Göygöl şəhərində, Hacıkənddə, Şəmkirdə, Bakıda və s. ərazilərdə məskunlaşmışlar. Azərbaycanda məskunlaşan almanlar öz mədəniyyətini və ya mədəni irsini qoruyub saxlamaqla təhsilini, şərabçılığı, tikinti-inşaat sahələrində təcrübələrini davam etdirmişlər. Sovet imperiyası İkinci Dünya müharibəsindən sonra alman mənşəli əhalini Sibirə və Qazaxıstana departasiya edilmişdir (Cəfərli,2024).

Ruslar - Azərbaycana XVIII əsrlərdə köçürülmüşlər (siyasi, iqtisadi, hərbi-strateji səbəblər). Bu dövrdə Azərbaycanda məskunlaşan rusların sosial tərkibi əsasən torpaqdan məhrum olmuş və iqtisadi cəhətdən müflisləşmiş kəndlilər, həmçinin xristian dininin müxtəlif məzhəblərinə qarşı çıxan dini icmanın təriqətçi nümayəndələri idi. XX əsrin (20–30-cu illərində) əvvəllərində respublikanı rusların güclü miqrasiya dalğası bürümüşdür. 1989-cu ildən sonra Azərbaycanda rusların kütləvi emiqrasiyası baş vermişdir (İmanova, 2026, Quliyeva 2012).

Çoxmillətli Azərbaycan dövləti tarixən onun hüdudlarında yaşayan xalqların etnik-mədəni özünəməxusluğunun müdafiəsi və inkişaf etdirilməsi üçün onları münasib şəraitlə təmin etmişdir. Müasir Azərbaycan 20-dən artıq bərabərhüquqlu millət və ya xalqın, o cümlədən sayı 100 mindən çox olan dörd böyük xalqın nümayəndələrinin yaşadığı çoxmillətli dövlətdir. Hesablamalara görə dünyada 50 milyondan artıq (təxminən) azərbaycanlı yaşayır.

Azərbaycan etnosu türkdilli xalqların məskunlaşdığı regionda təşəkkül tapmış, bu etnik-mədəni mühitin formalaşmasında əsas rol oynamışdır. Tarixi proseslər nəticəsində türk etnosları bu regionun demoqrafik və mədəni əsasını təşkil etmişdir. XX əsrin 30-cu illərinə kimi Azərbaycan türkcəsi "türk dili" adlanırdı (Bünyadov, 2009).

Azərbaycan dili tarixən bütün Qafqazda və Ön Asiyada yaşayan xalqlar arasında ünsiyyət saxlamaq üçün vasitəçi dil rolunu oynamışdır. XIX əsr Avropa yazıçı və səyyahlarından E. Reklü, A. Bestujev-Marlinski, F. Bodenştedt, M. Lermontov və s. Azərbaycan dilinin regiondakı rolunu xüsusilə qeyd etmişlər.

Hazırda Azərbaycan ərazisində məskunlaşmış xalqların dilləri, əsasən dörd böyük dil ailəsinə (Altay, Şimali Qafqaz, Hind-Avropa, Kartvel) mənsub olsa da, ölkənin müasir etnolinqvistikasında dominantlıq türk dillərinin oğuz qrupuna daxil olan, Azərbaycan türkcəsinə məxsusdur. Altay dil ailəsinin türk dilləri qolunun Oğuz yarımqrupuna daxil olan **Müasir Azərbaycan türkcəsi** birinci minilliyin əvvəllərindən indiki Azərbaycan dövləti ərazisinə məskunlaşmağa başlamış, türk mənşəli tayfaların dilləri əsasında formalaşmışdır (İmanova, 2026, Bünyadov, 2009).

**Şimali Qafqaz dilləri** Azərbaycan ərazisində ləzgi, avar, saxur, udin, xınalıq, buduq, qriz dilləri ilə təmzil olunmuşdur və əsasən ölkənin şimal

hissəsində geniş yayılmışdır. Üstünlük təşkil edən ləzgi dili Şimali Qafqaz dil ailəsinin Dağıstan qrupunun ləzgi yarımqrupuna daxildir. Udi dili də ləzgi yarımqrupuna aid olaraq, Qəbələ rayonunun Nic kəndində və Oğuz rayon mərkəzində (ləzgi yarımqrupuna aid olunduğu mübahisəlidir) və Balakən ərazilərində yayılmışdır. Şimali Qafqaz dil ailəsinin Şahdağ qrupuna daxil olan xınalıq, buduq, qriz dilləri Azərbaycanın şimal-şərqində yayılmışdır. Xınalıq dilində (Quba rayonu) Xınalıq kənd sakinləri, buduq dilində (Quba rayonu) Buduq, Cənub Buduq və Dəli Qaya kənd sakinləri, Qriz dilində (Quba rayonu) Əlik, Cek və Haput kənd sakinləri danışırlar (İmanova, 2026,Paşayeva,2013).

**Hind-Avropa dil ailəsi** Azərbaycan ərazisində talış, rus və erməni dilləriylə təmsil olunur. Talış dili iran dil qrupuna, rus dili slavyan dil qrupuna, erməni dili isə ayrı qrup təşkil edir. Talışlar Azərbaycanın cənubunda yaşayan qədim etnik qrupdur. Talış dili İran dil qrupuna aid olub, danışıq dili kimi qorunur. Azərbaycan kontekstində Talış dili rəsmi statusa malik deyil, amma mədəni və etnik kimliyin əsas atributu kimi əhəmiyyətlidir. Rus dili əsasən Bakı şəhərində, erməni dili isə vaxtilə Qarabağ ərazisinin bir neçə rayonunda yayılmışdır.

**Kartvel** dil ailəsi Azərbaycanda gürcü dili ilə təmsil olunur. Azərbaycanda Kartvel dilində danışan Qax-Zaqatala, Balakən rayonlarında məskunlaşan inqloylardır.

Azərbaycanda Hind-Avropa dillər ailəsinin İran dil qrupuna tatlar, talışlar, kürdlər, dağ yəhudiləri, Qafqaz dilləri ailəsinin Dağıstan qrupunun ləzgi yarımqrupuna daxil olan ləzgilər, avarlar, udilər, darginlər, saxurlar, Şahdağ qrupuna xınalıqlar, buduqlar, qrizlər daxildir.

**Nəticə**

-Tədqiqat zamanı alınan nəticələr əhali siyahıya alınması materiallarının statistik təhlili, elmi ədəbiyyatın və demoqrafik göstəricilərinin müqayisəli təhlili, tarixi entoqrafik mənbələrin sistemli təhlili əsasında və tətbiq edilən statistik-coğrafi metodların nəticələrinə əsaslanır.Yəni, nəticələr yalnız təsviri xarakter daşımır, həm də analitik işlənmiş elmi məlumatların sistemli-tarixi-coğrafi metodlarının nəticələrinə əsaslanır.

-Azərbaycan Respublikasında əhalinin 94,2%-i Azərbaycan etnosu, 5,8%-ni isə digər etnoslar təşkil edir. Azərbaycan Respublikasının əhalisini yüz mindən artıq olan dörd etnos təşkil edir. Ləzgilər 2%, ruslar 1,3%, talışlar 1,3%, avarlar 0,6%, türklər 0,4% , tatlar 0,3%, saxurlar 0,3%, yəhudilər 0,06%, kürdlər 0,05%, udilər 0,04% və başqaları.

- Azərbaycan ərazisində məskunlaşmış xalqların danışıq dilləri, əsasən dörd böyük dil ailəsinə aiddir: Altay, Şimali Qafqaz, Hind-Avropa, Kartvel. Altay dil ailəsinin türk dilləri qolunun Oğuz yarımqrupuna daxil olan müasir Azərbaycan türkcəsi birinci minilliyin əvvəllərində Azərbaycan ərazisində məskunlaşmış türk mənşəli tayfaların dilləri əsasında formalaşmışdır. Etnik azlıqlarda dövlət dili olan Azərbaycan türkcəsi vahid ünsiyyət vasitəsi olmaqla, milli inteqrasiyanın və ictimai-siyasi birliyin əsas amili kimi çıxış edir.

- Azərbaycan çoxmillətli və milli etnik dövlət olmaqla ərazisində talışlar, avarlar, türklər, kürdlər və başqa etnik qruplar yaşayır. Ölkənin müasir milli etnik strukturunu onun zəngin tarixi irsi, əlverişli coğrafi mövqeyi, qədim etno-mədəni və sosial inkişafı prosesləri səbəb olmuşdur.

- Şəki-Zaqatala iqtisadi rayonunda yaşayan azsaylı xalqların xəritə-sxemi hazırlanmışdır. Xəritə-sxemdə inzibati rayonlar üzrə kəndlərdə məskunlaşmış etnik azlıqlar qeyd edilmişdir.

## ƏDƏBİYYAT


Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (t.y.). *ASİS* [Statistik məlumat bazası]. 18 oktyabr 2026 tarixində əldə edilib: https://www.azstat.gov.az/portal/tblInfo/TblInfoList.do

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, & Azərbaycan Milli Kitabxanası. (2016). *Azərbaycanda multikulturalizm: Biblioqrafiya*. Apostrof. preslib.az

Babayeva, F. (2020, 11 yanvar). Azərbaycanda multikulturalizm ənənələri. *Yeni Azərbaycan*, (4), 6. https://anl.az/down/meqale/yeni_az/2020/yanvar/694877.htm

Bünyadov, Z. M., & Yusifov, Y. B. (Red.). (2009). *Azərbaycan tarixi* [Dərslik]. Çıraq.

Cəfərli, M. (2024). Sovet Azərbaycanında alman kəndlərinin ermənilşdirməsi siyasəti. *XI Beynəlxalq Türk Dünyası Araşdırmaları Simpoziumunun materialları* (11–13 iyun 2024, Bakı, s. 425–431). https://doi.org/10.30546/100981.1.2024.0153 utudas.org

Dr. Rohit Sublaik, Swati Prajapat, Mr. Sony Varghese, Dr.Vandna Sharma, & Sarkhan Jafarov. (2024). Marketing Innovations And Their Impact On Financial Performance: Perspectives From Management Experts. *Educational Administration: Theory and Practice, 30*(5), 9286–9292. Retrieved from https://kuey.net/index.php/kuey/article/view/3504

İmanova, S. H. (2026). *Əhali coğrafiyası*.

Jafarov, S., & Imrani, Z. (2021). Comparison of the Azerbaijani education system with the US education system (XX-XXI centuries (1960-2015)). "In World Science: problems and innovations" The XVI International Scientific Symposium, East Lansing (Michigan, USA). https://doi.org/10.5281/zenodo (Vol. 5895028)

Jafarov, S., Imrani, Z., & Eminov, Z. (2024). The current state of foreign trade relations of the Republic of Azerbaijan. *South Florida Journal of Development, 5*(7), e4194. https://doi.org/10.46932/sfjdv5n7-034

Quliyeva, S. (Tərt.). (2012). *Azərbaycanda yaşayan azsaylı xalqların adət və ənənələrinin təbliğində kitabxanaların rolu: Metodik vəsait*. M. F. Axundov adına Azərbaycan Milli Kitabxanası. https://www.anl.az/down/Azsayli_xalqlar.pdf anl.az

Məhərrəmov, C. N., & Həsənova, İ. N. (2022). *Multikulturalizm və tolerantlıq (multikulturalizmə giriş): Dərs vəsaiti* (Əlavələrlə təkmilləşdirilmiş təkrar nəşr).

Musayeva, S. X. (2020). Şəki-Zaqatala bölgəsi multikultural və tolerantlıq ənənələrinin ən gözəl nümunəsidir. *Tarix, insan və cəmiyyət*, (2[29]), 90–94. https://adpu.edu.az/images/adpu_files/elm/elmi-jurnallar/03tic/tic-2-2020.pdf

Paşayeva, M. T. (2013). *Azərbaycanlıların adət və inancları* [Tarix elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu].

Yaqubqızı, M. (Tərt.). (2014). *Azsaylı xalqların folkloru* (I kitab). Elm və təhsil.

## ETHNIC DIVERSITY AND LINGUISTIC STRUCTURE OF THE POPULATION OF THE REPUBLIC OF AZERBAIJAN

Sona Imanova[1]*
[1]*Azerbaijan State Pedagogical University, Azerbaijan*
**Corresponding author: sona.imanova@adpu.edu.az*

***Abstract.*** This article examines the ethnic diversity and linguistic structure of the population of the Republic of Azerbaijan through a comprehensive geographical approach. The study aims to identify the formation patterns of the country's ethnic composition, the regional distribution of ethnic groups, and the language families to which their languages belong. The research draws on official statistics, population census records, and scholarly literature, employing comparative geographical, statistical, and historical analysis. Changes in population size and ethnic composition across different periods are examined alongside the settlement patterns, traditions, occupations, and cultural heritage of individual ethnic groups. The geographical distribution, communicative functions, and dialectal features of languages are also assessed. The analysis indicates that Azerbaijan's ethnic and linguistic diversity has developed through historical settlement processes, migration, and sociocultural interaction. Particular attention is paid to the role of Azerbaijani as a common language of communication in promoting social integration and strengthening social cohesion. The study also considers the legal and institutional mechanisms supporting the preservation of ethnic minorities' languages, folklore, and cultural identities. A schematic map illustrates the settlement distribution of minority ethnic groups in the Shaki–Zagatala region. Regional characteristics and historical processes are considered alongside the influence of globalization on the preservation of ethnocultural heritage. The findings highlight the importance of protecting ethnic and linguistic diversity, transmitting cultural heritage to future generations, and supporting social integration.

***Keywords:*** ethnic diversity, linguistic structure, ethnic minorities, language families, settlement, multiculturalism, Azerbaijan

**İstinad vermək üçün (APA 7):**
İmanova, S. (2026). Azərbaycan Respublikasında əhalinin etnik müxtəlifliyi və linqvistik strukturu. *Coğrafiya və Təbii Resurslar, 12*(1), 23–30. https://doi.org/10.5281/zenodo.23451038